*Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2025, № 1-2, s.125-129*
*Nakhchivan Teachers Institute. Scientific Works, 2025, № 1-2, p.125-129*
*Нахчыванский институт учителей. Научные труды, 2025, № 1-2, с.125-129*

**UOT: 159.9:371.3:37.01**
https://doi.org/10.30546/670832.2025.01.937

# Praktik psixoloqun müəllimlərlə, valideynlərlə və şagirdlərlə həyata keçirdiyi psixoprofilaktik işlərə dair

**Müəllif(lər):**

**Nüşabə Məmmədova**
Naxçıvan Müəllimlər İnstitutu
Baş müəllim
**E-poçt:** Nushabamammadova@nmi.edu.az

**Açar sözlər:** psixoloji profilaktika, psixoloji xidmət, valideyn, praktik psixoloq, müəllim, şagird

**Annotasiya.** Məqalədə psixoprofilaktik işdə praktik psixoloqun fəaliyyətinin istiqamətləri araşdırılır. Psixoprofilaktika, psixoloji problemlərin qarşısını almaq üçün insanların psixoloji sağlamlığının qorunmasına yönəlmiş tədbirlər sistemidir. Praktik psixoloq təhsil prosesində mühüm rol oynayaraq müəllimlər, valideynlər və şagirdlərlə psixoprofilaktik işlər həyata keçirir. Praktik psixoloq məktəb mühitində psixoloji sağlamlığın qorunması və sosial-emosional rifahın təmin edilməsi barədə valideynlərə, müəllimlərə məlumat və məsləhətlər verir.

Müasir təhsil mühitində psixoloji rifahın təmin edilməsi şagirdlərin akademik uğurlarına, müəllimlərin peşəkar fəaliyyətinə və valideyn-məktəb əməkdaşlığının səmərəliliyinə birbaşa təsir edir. Bu baxımdan, məktəb psixoloqunun profilaktik fəaliyyəti psixoloji problemlərin erkən mərhələdə aşkarlanması və həllinə yönəlmiş mühüm vasitələrdən biridir.

Bu məqalənin yazılmasında məqsəd praktik psixoloqun müəllimlər, valideynlər və şagirdlərlə apardığı psixoprofilaktik işlərin mahiyyətini, metodlarını və onların psixoloji sağlamlığa təsirini öyrənməkdir.

Tədqiqat zamanı psixoloji müşahidə, sorğu, müsahibə və eksperimental-diaqnostik üsullardan istifadə olunmuşdur. Bu metodlar vasitəsilə müxtəlif iştirakçı qruplarının psixoprofilaktik işlərə reaksiyası və effektivliyi təhlil edilmişdir.

Araşdırma nəticələri göstərir ki, sistemli psixoprofilaktik işlər şagirdlərin emosional dayanıqlığını artırır, müəllimlərin pedaqoji fəaliyyətində stress səviyyəsini azaldır və valideynlərin tərbiyə prosesində daha məlumatlı və dəstəkverici rol oynamasına kömək edir.

**Author(s):**

**Nushabe Mammadova**
Nakhchivan Teachers Institute
Senior teacher
**E-mail:** Nushabamammadova@nmi.edu.az

**Key words:** psychological prevention, psychological service, parent, practical psychologist, teacher, student

## Psychoprophylactic work carried out by a practical psychologist with teachers, parents and students

**Abstract.** The article explores the areas of activity of a practical psychologist in psychoprophylactic work. Psychoprophylaxis is a system of measures aimed at preserving individuals' psychological well-being in order to prevent psychological problems. A practical psychologist plays an important role in the educational process by conducting psychoprophylactic work with teachers, parents, and students. Within the school environment, the psychologist provides information and advice to parents and teachers on maintaining psychological health and ensuring social-emotional well-being.

In the modern educational environment, ensuring psychological well-being directly influences students' academic success, the professional performance of teachers, and the effectiveness of parent-school collaboration. In this regard, the preventive activities of school psychologists are among the key tools for identifying and addressing psychological issues at an early stage.

The purpose of this article is to examine the nature and methods of psychoprophylactic work conducted by practical psychologists with teachers, parents, and students, and to assess its impact on psychological well-being.

During the research, methods such as psychological observation, surveys, interviews, and experimental-diagnostic techniques were used. These methods were employed to analyze the reactions of different participant groups to psychoprophylactic work and its effectiveness.

The research findings show that systematic psychoprophylactic work increases students' emotional resilience, reduces stress levels in teachers' pedagogical activities, and helps parents become more informed and supportive in the upbringing process.

**Автор(ы):**

**Нушаба Мамедова**
Нахчыванский институт учителей
Старший преподаватель
**Э-почта:** Nushabamammadova@nmi.edu.az

**Ключевые слова:**
психологическая профилактика, психологическая служба, родитель, практический психолог, учитель, ученик

## О психопрофилактической работе, проводимой практическим психологом с учителями, родителями и учащимися

**Аннотация.** В статье рассматриваются направления деятельности практического психолога в психопрофилактической работе. Известно, что психопрофилактика - это система мероприятий, направленных на сохранение психологического здоровья людей с целью предупреждения психологических проблем. Практический психолог проводит психопрофилактическую работу с педагогами, родителями и учащимися, играя важную роль в образовательном процессе. Практический психолог предоставляет информацию и консультации родителям, учителям по вопросам сохранения психологического здоровья и обеспечения социально-эмоционального благополучия в школьной среде.

Обеспечение психологического благополучия в современной образовательной среде оказывает непосредственное влияние на успеваемость учащихся, профессиональную деятельность педагогов, эффективность сотрудничества родитель - школа. В связи с этим профилактическая деятельность школьного психолога является одним из важных инструментов, направленных на выявление и решение психологических проблем на ранней стадии. Все это обосновывает актуальность рассматриваемой проблемы.

Цель написания данной статьи - изучить сущность, методы психопрофилактической работы практического психолога с педагогами, родителями и учащимися и их влияние на психологическое здоровье.

В ходе исследования использовались методы психологического наблюдения, опроса, интервью и экспериментально-диагностические методы. С помощью этих методов были проанализированы реакция и эффективность различных групп участников на психопрофилактические исследования.

Результаты исследований показывают, что системная психопрофилактическая работа повышает эмоциональную устойчивость учащихся, снижает уровень стресса педагогической деятельности педагогов, помогает родителям играть более осознанную и поддерживающую роль в процессе воспитания.

**Giriş.** Müasir təhsil sistemində psixoloji xidmətin rolu getdikcə artmaqdadır. Xüsusilə praktik psixoloqların məktəblərdə fəaliyyəti, tədris mühitinin sağlamlaşdırılması, müəllim, valideyn və şagirdlər arasında qarşılıqlı münasibətlərin tənzimlənməsi baxımından mühüm əhəmiyyət daşıyır. Bu baxımdan, praktik psixoloqun əsas fəaliyyət istiqamətlərindən biri olan psixoprofilaktik işlərin düzgün təşkili xüsusi əhəmiyyət kəsb edir. Mövzunun seçilməsi də məhz bu aktuallıqdan irəli gəlir. Belə ki, müasir dövrdə təhsil mühitində rast gəlinən bir sıra psixoloji problemlərin qarşısının alınması, onların erkən mərhələdə müəyyənləşdirilərək qarşısının alınması üçün psixoprofilaktik tədbirlərin aparılması vacib hesab olunur.

**Tədqiqatın fərziyyəsi** ondan ibarətdir ki, praktik psixoloq tərəfindən sistemli və məqsədyönlü şəkildə həyata keçirilən psixoprofilaktik tədbirlər müəllimlərin pedaqoji fəaliyyətində, valideynlərin övladlarına yanaşma tərzində və şagirdlərin psixoloji inkişafında müsbət dəyişikliklərə səbəb ola bilər.

**Tədqiqatın məqsədi** praktik psixoloqun müəllimlərlə, valideynlərlə və şagirdlərlə apardığı psixoprofilaktik işlərin mahiyyətini araşdırmaq, bu fəaliyyətin effektivliyini qiymətləndirmək və onun təkmilləşdirilməsi yollarını müəyyənləşdirməkdən ibarətdir.

**Tədqiqatın vəzifələri:**

1. Psixoprofilaktik işlərin nəzəri əsaslarını araşdırmaq;
2. Praktik psixoloqun fəaliyyət sahələrini və metodlarını müəyyənləşdirmək;
3. Müəllimlərlə, valideynlərlə və şagirdlərlə aparılan psixoprofilaktik tədbirləri təhlil etmək;
4. Psixoprofilaktik işlərin effektivliyini qiymətləndirmək üçün meyarlar müəyyənləşdirmək;
5. Psixoprofilaktik fəaliyyətin daha səmərəli təşkili üçün təkliflər irəli sürmək.

**Materiallar və metodlar.** Tədqiqat materiallarının ümumi təsviri:

Bu tədqiqatda praktik psixoloqun məktəb mühitində-müəllimlərlə, valideynlərlə və şagirdlərlə apardığı psixoprofilaktik fəaliyyət araşdırılmışdır. Tədqiqatda həm nəzəri mənbələrdən (elmi ədəbiyyat, metodik vəsaitlər), həm də emprik məlumatlardan (sorğular, müşahidələr nəticəsində əldə edilmiş real məlumatlar) istifadə edilmişdir.

**Tədqiqatın növü və eksperimental baza**: Tədqiqat emprik xarakterlidir. Eksperimental baza kimi Naxçıvan şəhərində yerləşən 3 ayrı ümumtəhsil məktəbi seçilmişdir. Tədqiqat aparılan məktəblər nəticələrin ümumiləşdirilməsi imkanlarını artırır.

Tətbiq olunan metod və üsullar, onların təsiri və əsaslandırılması: 1.Müşahidə metodu - psixoloqun məktəbdə keçirdiyi fərdi və qrup psixoprofilaktik məşğələlər müşahidə edilmişdir. Müşahidə real davranışları və psixoloqun tətbiq etdiyi yanaşmaları canlı izləməyə imkan verir. 2.Sorğu metodu (anketlər) - müxtəlif qruplar üçün hazırlanmış qapalı və açıq suallardan ibarət anketlər vasitəsilə onların psixoloji ehtiyacları, qarşılaşdıqları çətinliklər və psixoloqla əməkdaşlıq təcrübəsi öyrənilmişdir. 3.Nəzəri təhlil metodu - normativ sənədlərin təhlili ilə psixoprofilaktik fəaliyyətin elmi və hüquqi əsasları öyrənilmişdir.

**Metodların seçilmə səbəbləri:**

Bu metodlar bir-birini tamamlayır. Müşahidə praktik fəaliyyəti dərinləşdirməyə, sorğu geniş miqyaslı informasiya toplamağa, nəzəri təhlil isə araşdırmanın elmi əsaslarını gücləndirməyə imkan verir. Bu kombinasiyalı yanaşma tədqiqatın həm nəzəri, həm də praktik cəhətdən əsaslı və əhatəli aparılmasını təmin edir.

**Nəticələr və müzakirə**

Aparılmış empirik tədqiqat nəticəsində praktik psixoloqun məktəb mühitində həyata keçirdiyi psixoprofilaktik tədbirlərin əhəmiyyəti və real təsir imkanları ətraflı şəkildə təhlil olunmuşdur. Bu tədqiqatın məqsədi praktik psixoloqun pedaqoji kollektiv, valideyn və şagirdlərlə apardığı psixoprofilaktik fəaliyyətin məzmununu və effektivliyini qiymətləndirmək, bu fəaliyyətin təkmilləşdirilməsi üçün praktik tövsiyələr irəli sürmək olmuşdur. Giriş hissəsində irəli sürülən fərziyyə yəni, praktik psixoloqun sistemli şəkildə həyata keçirdiyi psixoprofilaktik tədbirlərin məktəbdə psixoloji rifahı artıracağı və iştirakçıların münasibətlərinə müsbət təsir göstərəcəyi tədqiqat nəticələri ilə təsdiq olunmuşdur.

Tədqiqat nəticələri göstərir ki, psixoprofilaktik fəaliyyətin sistemli şəkildə qurulması təhsil mühitinin psixoloji rifahını gücləndirir. Bu səbəbdən gələcək tədqiqatlarda aşağıdakı istiqamətlər xüsusi diqqət mərkəzində saxlanılma-

lıdır:

• Müxtəlif yaş qrupları üzrə fərqli psixoprofilaktik metodların effektivliyinin müqayisəli təhlili;

• Rəqəmsal texnologiyalarla inteqrasiya olunmuş psixoprofilaktik müdaxilələrin işlənib hazırlanması;

• Təlimçilər və psixoloqlar üçün psixoprofilaktik texnikalar üzrə yerli təlim proqramlarının hazırlanması;

• Ailədaxili münaqişələrin profilaktikasında psixoloq-valideyn əməkdaşlığının rolu;

• Psixoprofilaktik tədbirlərin inklüziv təhsil şəraitində tətbiqi.

Psixoprofilaktik iş-müəllimlərdə, uşaqlarda, valideynlərdə və ya onları əvəz edən şəxslərdə ümumi psixoloji mədəniyyətin formalaşdırılması, psixoloji biliklərdən uşaqlarla işləyərkən və ya öz inkişafı maraqları üçün istifadə etmək istəyi, hər yaş mərhələsində uşağın tam inkişafı üçün şəraitin yaradılması, şəxsiyyətin və zəkanın inkişafında pozuntuların vaxtında qarşısının alınmasına xidmət edir. Psixoprofilaktik iş, geniş mənada, psixi rifahın və sağlamlığın qorunması, möhkəmləndirilməsi və yaxşılaşdırılması məqsədi ilə psixoloji tədbirlərin həyata keçirilməsini nəzərdə tutur.

Psixoprofilaktikanın üç səviyyəsindən danışmaq olar.

I səviyyə - sözdə ilkin profilaktika. Psixoloq kiçik emosional, davranış və öyrənmə pozğunluğu olan uşaqlarla işləyir və demək olar ki, bütün uşaqların psixi sağlamlığına və psixi resurslarına qayğı göstərir. Bu səviyyədə psixoloqun diqqəti məktəbdəki bütün şagirdlərə, həm "normal", həm də problemi olanlara (yəni 10 şagirddən 10-na) yönəlib.

II səviyyə - ikincili profilaktika. Bu, "risk qrupu" adlanan qrupa, yəni artıq problem yaşamağa başlayan uşaqlara yönəldilmişdir. İkinci dərəcəli profilaktika uşaqlarda öyrənmə və davranış problemlərinin erkən müəyyən edilməsini nəzərdə tutur. Onun əsas məqsədi uşaqlar sosial və ya emosional olaraq idarəolunmaz hala düşməmiş bu çətinlikləri aradan qaldırmaqdır.

III səviyyə - üçüncü dərəcəli profilaktika. Psixoloqun diqqəti öyrənmə və ya davranış problemləri olan uşaqlara yönəldilir, onun əsas vəzifəsi ciddi psixoloji çətinlikləri və problemləri düzəltmək və ya aradan qaldırmaqdır.

Psixoloji profilaktika uşağın inkişafında arzuolunmaz mümkün anomaliya və qüsurların irəlicədən qarşısını almağa yönəlmiş qabaqlayıcı tədbirlər sistemidir. Bu istiqamətin psixoloji xidmət sistemində zəruriliyi müəllim, tərbiyəçi və şagirdlərdə psixoloji biliklərə olan tələbatların təmin edilməsi zərurə ti ilə bağlıdır. Praktik psixoloq psixoprofilaktik işlər vasitəsilə müəllim və tərbiyəçilərdə, valideyinlərdə və ya onları əvəz edən şəxslərdə ümumi psixoloji mədəniyyət formalaşdırır, uşaqlarla iş zamanı psixoloji biliklərdən istifadənin zəruriliyini, onların hərtərəfli inkişafi üçün əlverişli təhsilləndirici və inkişafetdirici mühitin yaradılmasının əhəmiyyətini əsaslandırır. [3, s.164]

Psixoloqun işlədiyi təhsil müəssisəsinin növündən asılı olaraq psixoprofilaktik işə aşağıdakılar daxildir:

- uşaqların uşaq bağçasına uyğunlaşdırılması, valideynlər və ya onları əvəz edən şəxslər üçün uyğunlaşma dövründə uşaqlara necə kömək göstərilməsi barədə tövsiyələr;

- yuxarı qrupdan hazırlıq qrupuna keçid zamanı uşaqların öyrənməyə hazırlığı baxımından yoxlanılması, məktəbə hazırlıqda mümkün ləngimələrin və boşluqların aradan qaldırılması üçün valideynlər və ya onları əvəz edən şəxslər və tərbiyəçilər üçün tövsiyələrin hazırlanması;

- müəllimlər və uşaqlar, müəllimlərin həmkarları və valideynlər ilə ünsiyyət formalarının optimallaşdırılması, geniş spektrli məsələlər üzrə müəssisənin əməkdaşları ilə məsləhətləşmələr yolu ilə təhsil müəssisəsində əlverişli psixoloji mikroiqlimin yaradılması.

Şagirdlərin rəftar və davranışında müşahidə olunan potensial təhlükəli amillərin neytrallaşdırmağa yönəlmiş proqramların işlənilib hazırlanması və konkret əməli tədbirlərin həyata keçirilməsi praktik psixoloqun fəaliyyət sistemində diqqət tələb edən sahələrdən biri olmalıdır. Vaxtında həyata keçirilən qabaqlayıcı tədbirlər məktəb yaşlı uşaqların fiziki və psixi sağlamlığına ziyan vura biləcək amillərin qarşısını almaq, təhrif edilmiş və təqlidi davranış modelinin, ziyanlı həyat ərzi formalarını vaxtında aradan qaldırmağa imkan yaratmış olur. [2, s.222-223]

Psixoloji xidmətin vəzifələrinin peşəkarcasına səriştəli həlli ilə həm məktəbəqədər, həm də

məktəb psixoloqları əsasən psixoprofilaktik işlərlə məşğul olurlar. Ancaq yaş mərhələlərindən birində uşağın normal inkişafının şərtləri pozulursa, növbəti mərhələdə əsas diqqət korreksiyaya yönəldilməli və xüsusi inkişaf işləri aparılmalıdır.

Praktik psixoloq şagirdlər üzərində gündəlik müşahidələr əsasında qeydə aldığı faktlara əsaslanmaqla mənfi təzahürlərin qarşısını vaxtında almaq üçün əməli tədbirlər həyata keçirməlidir. Şagirdlərin rəftar və davranışında müşahidə olunan potensial təhlükəli amillərin neytrallaşdırılmasına yönəlmiş proqramların işlənib hazırlanması və konkret əməli tədbirlərin həyata keçirilməsi praktik psixoloqun fəaliyyət sistemində xüsusi diqqət tələb edən sahələrdən biri olmalıdır. [3, s.168]

Psixoprofilaktik işin müxtəlif formaları var.

Birinci forma sosial mühitin təşkilidir. Bu, ətraf mühitin sapmaların formalaşmasına müəyyənedici təsiri ideyasına əsaslanır. Sosial amillərə təsir etməklə, fərdin arzuolunmaz davranışlarının qarşısını almaq olar. Təsir bütövlükdə cəmiyyətə yönəldilə bilər, məsələn, deviant davranışa qarşı mənfi ictimai rəyin yaradılması yolu ilə.

İkinci iş forması məlumatlandırmadır. Bu, bizim üçün profilaktik işin ən ümumi sahəsidir. Mühazirələr, xüsusi ədəbiyyatın, söhbətlərin və ya video-TV filmlərinin paylanması şəklində. Yanaşmanın mahiyyəti fərdin konstruktiv qərarlar qəbul etmək qabiliyyətini artırmaq üçün onun idrak proseslərinə təsir etmək cəhdidir.

Şəxsiyyət özünün motivasiyası, dəyərləri, yönəlişləri, sərvət meylləri, maraqları ila ahəngdar qaydada inkişaf edir. Onun ətraf aləmə münasibəti də bu amillər zəminində, hayat fəaliyyətində formalaşır. Nəticədə şəxsiyyətin mənəvi yönümləri və intellektual imkanları aydınlaşır. Onun ən sadə formaları hələ məktəbəqədər yaşda özünü göstərir. Psixoloqlar insanın normal inkişafının əsas şərtini də mühit təsirlərinin şəxsiyyətə yönəldilməsində, bu zəmində müvəffəqiyyətli fəaliyyətində görürlər. Profilaktik məqsəd həm də bununla izah olunur insanda özünəinam yaratmaqla səmərəli fəaliyyətə, özünüinkişafa yönəltmək. [1, s.90]

Psixoprofilaktik işin üçüncü forması sosial əhəmiyyətli bacarıqların aktiv sosial təlimidir. Qrup təlimləri şəklində həyata keçirilir. Aşağıdakı təlim növləri ümumidir:

• müqavimət təlimi - mənfi sosial təsirə qarşı müqavimət. Təlim zamanı deviant davranışa münasibət dəyişdirilir, reklam strategiyalarını tanımaq bacarıqları formalaşır, həmyaşıdların təzyiqi zamanı "yox" demək bacarığı inkişaf etdirilir;

• həyat bacarıqlarının inkişafı üzrə təlim. Həyat bacarıqları fərdin ən vacib sosial bacarıqları kimi başa düşülür. İlk növbədə, bu, ünsiyyət qurmaq, dostluq münasibətlərini saxlamaq və münaqişələri konstruktiv həll etmək bacarığıdır.

"Profilaktika və reabilitasiya işlərində təkcə şəxsin davranışına təsir göstərilmir, eləcə də sosial mühitin vəziyyəti və şəxsin ətrafında müsbət sosial sahənin formalaşmasına yönəldilmiş olur, buna görə də bu zaman fərqli metodlardan istifadə edilə bilər. Formalaşmağa başlayan nevrotik reaksiya və dezadaptiv davranış formaları müşahidə olunan uşaqlarda-hələ xəstə sayılmayan, lakin artıq sağlam da olmayan uşaqlardan-nevrozun qarşısının alınması üçün psixokorreksiya metodundan istifadə olunur"(4, s.65).

Dördüncü forma deviant davranışa alternativ olan fəaliyyətlərin təşkilidir. Bu iş forması deviant davranışın əvəzedici təsiri ideyası ilə əlaqələndirilir, o, artıq formalaşmış deviant davranış hallarında yardım göstərən demək olar ki, bütün proqramlarda həyata keçirilir.

Beləliklə, praktik psixoloq psixoprofilaktik işlər vasitəsilə müəllimlərdə, tərbiyəçilərdə, uşaqlarda, valideynlərdə və ya onları əvəz edən şəxslərdə ümumi psixoloji mədəniyyəti formalaşdırır, psixoloji biliklərdən uşaqlarla iş zamanı sitifadə olunmasını, hər bir yaş mərhələsində uşağın mükəmməl inkişafı üçün şəraitin yaradılması gedişində yol verilən pozuntular haqqında vaxtında xəbərdarlıq edilməsini nəzərdə tutur.

**Yekun nəticə**. Təhsil prosesində praktik psixoloqun müəllimlərlə, valideynlərlə və şagirdlərlə apardığı psixoprofilaktik işlər məktəb mühitinin psixoloji sağlamlığını qorumağa və sosial münasibətləri yaxşılaşdırmağa yönəlib. Müəllimlər stressi idarə etməyi və şagirdlərlə effektiv ünsiyyət qurmağı öyrənir, valideynlər uşaqların psixoloji xüsusiyyətlərini daha yaxşı anlayaraq düzgün tərbiyə metodlarını tətbiq edirlər. Şagirdlər isə emosional sabitlik, sosial bacarıqlar və münaqişələrin həlli sahəsində inkişaf edirlər. Bu tədbirlər bütövlükdə uşaqların təhsil mühitinə uğurla adaptasiya olmasına və onların psixi sağ-

lamlığının qorunmasına töhfə verir.

Psixoprofilaktika insan sağlamlığının ümumi psixoloji profilaktikası tendensiyasıdır ki, bu da bir sıra tibbi və sosial elmlərlə əlaqəli olduğunu və hər kəs üçün zəruri olduğunu bildirir. Məlumdur ki, xəstəliyin qarşısını almaq onu müalicə etməkdən daha asandır. Lakin proses artıq başlayıbsa, psixoprofilaktika mövcud vəziyyəti sabitləşdirmək üçün vaxtında həll yolu tapa bilər. Eyni zamanda, psixoprofilaktika həm normal sağlam insanlarla işləməyə yönəlib, həm də artıq bir növ psixi xəstəliyi olan cəmiyyətin üzvlərinə təsir göstərir.

**Ədəbiyyat**

1. Əmrahlı, L.Ş. "Psixoloji xidmətin əsasları" / L.Ş.Əmrahlı. I kitab. – Bakı: – 2007. – 284 s.
2. Çələbiyev, N.Z. "Təhsil sistemində psixoloji xidmət" / N.Z.Çələbiyev. I hissə, – Bakı. – 2008. – 308 s.
3. Nuriyev, S.Ş. "Təhsildə sosial-psixoloji xidmət" (dərs vəsaiti) / S.Ş.Nuriyev, D.R.İbrahimov. – Bakı: – 638 s.
4. Güləliyeva, İ. Psixoloji maarifləndirmə və profilaktika işlərinin aparılması / İ.Güləliyeva. – Bakı: – 2020. – 128 s.
5. Абрамов, Г.С. Практикум по психологическому консультированию. – М.: ПЕР СЭ, – 2005. – 120-122 с.
6. Грановская, Р.М., Никольская, И.М. Защита личности: психологические механизмы. – СПб.: Знание, – 2009. – 37-38 с.
7. Куташов, В.А., Барабанова, Л.В.,Куташова, Л.А. Современная медицинская психология / И.А.Куташов, Л.И.Барабанова, Л.А.Куташова. – Воронеж: – 2013. – 170 с.
8. Куташов, В.А., Кунин, В.А., Куташова Л.А. Помощь лицам с кризисными состояниями и суицидальным поведением. Монография. – Воронеж: – 2013. – 224 с.

*Məqalə psixologiya üzrə fəlsəfə doktoru, dosent Salatın Hacıyeva tərəfindən təqdim olunmuşdur.*

İlkin daxilolma – 08.01.2025, son daxilolma – 12.02.2025, qəbulolunma – 14.03.2025